## *TARİXİN TƏDRİSİ METODİKASI*

UOT 372.894(47)Az

***Lalə Alışan qızı Qurbanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏR İLK PEŞƏ İXTİSAS MƏKTƏBLƏRİ ŞAGİRDLƏRİNDƏ ESTETİK TƏRBİYƏNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

***Лала Алышан гызы Гурбанова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ВНЕКЛАССНЫЕ МЕРОПРИЯТИЯ ПО ИСТОРИИ АЗЕРБАЙДЖАНА КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ ПРОФЕССИОНАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

***Lale Alishan Gurbanova***
*Azerbaijan State Pedagogical University*

# EXTRACURRICULAR ACTIVITIES ON THE HISTORY OF AZERBAIJAN AS A MEANS OF FORMING AESTHETIC UPBRINGING OF STUDENTS IN PRIMARY VOCATIONAL EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Məqalədə ilk peşə ixtisas məktəblərinin şagirdlərində estetik tərbiyənin formalaşdırılmasında məktəbdənkənar tədbirlərin rolu məsələlərinə toxunulmuş, xüsusilə ekspozisiya zamanı şagirdlərin əyani yolla və kollektiv təlim vasitəsilə daha əyləncəli və yadda qalan biliklər əldə etməsi öz əksini tapmış, məktəbdənkənar tədbirlər zamanı təhsilalanların tədris zamanı mənimsədikləri biliklərini daha da genişləndirmək imkana nail olduqları nəticəsinə gəlinmişdir.

***Açar sözlər:*** *estetik tərbiyə, təlim , ekspozisiya, xalçaçılıq , məktəbdənkənar tədbir*

**Резюме.** В статье затрагивается роль внеклассных занятий в формировании эстетического воспитания учащихся начальных профессиональных учебных заведений, особенно во время экспозиции, которая дает учащимся более занимательные и запоминающиеся знания посредством визуального и коллективного обучения. Сделан вывод, что во время внеклассных занятий у учащихся есть возможность еще больше расширить знания, полученные в процессе обучения.

***Ключевые слова:*** *эстетическое воспитание, обучение, экспозиция, ковроткачество, внешкольные мероприятия*

**Summary.** The article touched upon the role of extracurricular activities in formation of aesthetic education for the students of primary vocational schools, especially making the students to gain fun and memorable knowledge through visual and collective learning during the exposition, and it was concluded that during extracurricular activities students have the opportunity to improve the knoüledge acquired during teaching.

***Key words**: aesthetic education, training, exposition, carpet-weaving, extracurricular activity*

Tarix fənni şagirdlərin estetik hisslərini, estetik mühakimə yürütmək bacarığını formalaşdırmağa xidmət edən mühüm fənlərdən biridir. Tarix proqramları və dərsliklərində təhsilalanların estetik tərbiyəsinə şərait yaradan çoxlu materiallar var. Bu materialları mənimsəyən şagirdlərdə sənətə məhəbbət, gözəlliyə rəğbət kimi keyfiyyətlər formalaşır. Şagirdlər bəşəriyyətin, eləcə də, ölkəmizin mədəniyyət sahəsindəki nailiyyətlərini öyrənərkən xüsusi estetik zövq alırlar. Təcrübəli tarix müəllimi ayrı-ayrı dövrlərdə incəsənətin özünəməxsus inkişaf xü-

susiyyətlərini şagirdlərə izah etməli, mədəni irsdən söz açmalı, təsviri sənət əsərlərindən, dərslikdəki mövzulara uyğun ədəbi parçalardan və incəsənətin başqa nümunələrindən istifadə etməklə uşaqlarda maraq oyatmalı, onlarda qəhrəmanlıq xarakterli tarixi hadisələrə rəğbət, düşmən, işğalçılıq xarakterli hadisələrə qarşı isə nifrət hissi formalaşdırmalıdır. Tədris proqramından və dərsliklərdən əlavə, muzeylərə ekskursiyalar, incəsənət əsərlərinin təsviri, bədii əsərlərdən parçalar oxunması yaranmış hissləri daha da möhkəmləndirir. Xüsusilə də dünya mədəni irsinə Azərbaycanın verdiyi töhfələrdən söhbət açılmalı, estetik və mənəvi tərbiyənin vəhdəti təşkil edilməlidir.

Dünya mədəniyyətinin zənginləşməsində Azərbaycanın, eləcə də müxtəlif xalqların və sivilizasiyaların rolunun dərk olunmasında mədəniyyət tarixinin öyrənilməsi mühüm rol oynayır. Bildiyimiz kimi fənlər üzrə müəyyən olunan təlim nəticələri məzmun xətlərində ümumi şəkildə ifadə edilir. Əsas standart isə fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir. 11-ci sinif Azərbaycan tarixi üzrə metodik vəsaitində“11-ci sinif Azərbaycan tarixi üzrə məzmun standartları” mövzusunda verilmiş 5-ci məzmun xətti və onun əsas və alt standartlarına diqqət yetirəndə bu aydın görünür. : 5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. Yəni Dünya mədəniyyətinin inkişafında Ü. Hacıbəyli, Q. Qarayev, Y. Məmmədəliyev, Lütfi Zadə və başqalarının timsalında yeni və ən yeni dövr Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir [7, s. 16]

Dərs zamanı reallaşdırılacaq məqsədlər, formalaşdırılmalı olan estetik tərbiyə yalnız dərs zamanı deyil, həm də dərsdənkənar və məktəbdənkənar vaxtlarda formalaşır. Məktəbdənkənar təlim-tərbiyə işi şagirdin vətəndaş kimi böyüməsinə xidmət edir, uşaqlarda həyat üçün faydalı olan əmək vərdişlərinin formalaşmasına köməklik göstərir. [8, s. 47-48]. Elm, texnika, ədəbiyyat, incəsənət və digər sahələrdə şöhrət tapmış şəxslərin əksəriyyəti dərsdənkənar və ya məktəbdənkənar tədbirlərin daimi üzvləri olmuşlar.

Məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətini, asudə vaxtlarının mənalı təşkilini təmin edir. Məktəbdənkənar təlim-tərbiyə könüllülük əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə, həmçinin ayrı-ayrı vətəndaşların köməyi ilə aparılır. Hazırda Respublikamızda fəaliyyət göstərən Məktəbdənkənar təhsil müəssisələrinə aşağıdakılar daxildir: uşaq-gənc yaradıcılıq sarayları, evləri, klublar, bədii, estetik, texniki, ekoloji, turizm və diyarşünaslıq yönümlü mərkəzlər, uşaq-gənclər idman və şahmat məktəbləri və s.

Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 374 məktəbdənkənar müəssisə fəaliyyət göstərir ki, bunlardan 81-i Uşaq Yaradıcılıq Mərkəzi kimi fəaliyyət göstərir. Bu Mərkəzlərində əsasən “Bacarıqlı əllər”, “Bədii qiraət”, “Rəsm», “Xalçaçılıq”, “Dram”, “Bədii özfəaliyyət”, “Məktəb teatrı”, “Naxışlı tikmə”, “Texniki estetika”, “Xor”, “Tar”, “Heykəltəraşlıq”, “Coğrafiya-diyarşünaslıq”, “Ağac üzərində oyma”, “Dəmir üzərində döymə”, “Tarix-diyarşünaslıq” və s. adlarda dərnəklər təşkil olunur. Respublikamızda eyni zamanda 10 Gənc turistlər və diyarşünaslıq mərkəzi fəaliyyət göstərir. Burada aparılan işlərin əsas məqsədi tariximizi, soykökümüzü, mədəniyyət, ədəbiyyat və incəsənətimizi gənc nəslə öyrətmək, onlara sevdirmək, vətənə məhəbbət hissi aşılamaqdır. Bu məqsədlə ekskursiya, yürüş və gəzintilər təşkil edir, şagirdlərə milli dəyərlərimizin qorunması, torpağa sevgi, vətənə məhəbbət hissinin aşılanması istiqamətində mütəmadi işlər aparır. Məktəb müəllimləri və məktəbdənkənar müəssisələrin işçiləri daim əməkdaşlıq şəraitində olmalıdırlar. Məktəbdə öyrəndiklərimizi məktəbdənkənar müəssisələrdə necə genişləndirməliyik?

Nümunəyə baxaq: X sinif Azərbaycan tarixi dərsliyində “ Səfəvilər dövründə mədəniyyət” mövzusunda verilmiş xalçaçılıqla bağlı şagird məlumatları oxuyur: “XIV-XV əsrdən Azərbaycanın nəfis naxışlı xalça məmulatları Avropaya ixrac edilməyə başladı. Tez bir zamanda incə ornamentləri ilə Avropa rəssamlarının diqqətini də cəlb edərək onların yaratdığı əsərlərdə öz əksini tapdı. Buna görə də orta əsrlərə aid italyan, Niderland və alman rəssamları-

nın əsərlərində Şərq xalçalarına rast gəlinir". Şagird dünya mədəniyyətinin inkişafında Azərbaycanın rolunu dəyərləndirir və artıq bu xalçaların nümunələrini yerində görüb tədqiq etmək istəyir [5, s. 153].

Tarix müəllimi Səfəvi dövründə mədəniyyəti tədris edərkən "İrsimizin izində" adlı bir tədbir qurub, şagirdləri Şeyx Səfi xalçasının axtarışına cəlb etmək məqsədilə, Azərbaycan Milli Xalça muzeyinə apara bilər. Məktəbdənkənar təlim zamanı kollektiv şəkildə öyrənmək, kollektiv şəkildə tədqiqat aparmaq uşaqlara xüsusi zövq verir. Ekspozisiya zamanı şagirdlər muzeyin 3 mərtəbəsini gəzir, estetik zövqlə tərtib olunmuş qədim və müasir xalçaları tədqiq edir, qeydlərini aparırlar.

Ekspozisiyanın birinci mərtəbəsini gəzəndə şagirdlər Azərbaycan xalça sənətinin keçdiyi inkişaf yolu ilə tanış olurlar. Bu yol xalçanın ən sadə növü olan həsirdən (qamış və ya qarğıdan hörülmüş), texnoloji cəhətdən daha mürəkkəb və mükəmməl formalara (palaz, cecim, kilim, şəddə, ladı, zili, sumax) aparır. Xalçaçılığın təkamül yolunu izləməkdə multimediya faylları da şagirdlərə kömək edir. Monitorlar əyani şəkildə xovsuz xalçanın hazırlanma texnologiyasını göstərir. Eyni zamanda burada, şagirdlərin marağına səbəb olacaq üfüqi və şaquli dəzgahlar, xalçaçıların yunun qırxılması, yuyulması və daranması, ipliyin əyrilməsi və rənglənməsində istifadə etdikləri alətlər də yerləşdirilib. Ekspozisiyada Azərbaycanın müxtəlif regionlarında aşkarlanmış, milli xalça sənətinin qədim köklərini təsdiq edən arxeoloji tapıntılar da nümayiş olunur. Ekspozisiyanın ikinci mərtəbəsində xovlu xalçalar təqdim olunub. Alim və xalçaçı rəssam Lətif Kərimovun verdiyi təsnifata uyğun olaraq, bu xalçalar qruplara bölünür.. Ekspozisiyada Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Qarabağ və Təbriz xalça qruplarını görmək mümkündür. Qarabağın böyük ölçülü "Dəstxalı-qəbə" xalça dəstləri ev sahibinin yüksək statusunu vurğulayır. Təbriz xalçaları hər biri sanki bir hekayəni xatırladan unikal süjetləri ilə məşhurdur. (Qeyd: Ekspozisiya haqqında məlumatlar Azərbaycan Milli Xalça Muzeyinin saytından götürülmüşdür. Azcarpetmuseum.az). Şagirdlər bələdçinin söylədiklərini diqqətlə dinləyir: "Azərbaycanın xalq sənətində tez-tez rast gəlinən motivlər müəyyən mənaya malikdir. Ekspozisiya şagirdlərə buta, əjdaha, həyat ağacı kimi elementlərin, müxtəlif formalı xaçların semantikasını və mənşəyini, islam simvollarının mənasını öyrənməyə imkan yaradır."

Bu mərtəbə şagirdlərin daha çox marağına səbəb olur. Çünki, şagirdlər bu mərtəbə ilə tanış olan zaman 10 cu sinif Azərbaycan tarixi dərsliyində öyrəndikləri məlumatları xatırlayırlar. Məktəbdə tədris zamanı dərsdə öyrəndikləri biliklərini muzeydə tədqiqat zamanı daha da genişləndirirlər. Dərslikdə olan " Xanlıqlar dövründə mədəniyyət" mövzusundakı məlumatlara diqqət yetirək: "XVIII əsrin ikinci yarısında, xanlıqlar dövründə xalça istehsalı xeyli genişlənmiş, hər xanlığın özünün xalçaçılıq karxanası olmuş və bu da müxtəlif məktəblərin yaranmasına zəmin yaratmışdır. Qarabağ xalçalarının rəng-boyaq palitrası olduqca zəngin olmuşdur. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Naxçıvan xanlığı dövründə bu gözəl və füsunkar təbiətli yurdumuzda vaxtilə evlərdə palaz, kilim, sumax, vərni, şəddə, zilli və cecim kimi xalça növləri toxunub, xalçatoxuma sənəti inkişaf etdirilib." Üçüncü mərtəbədə Azərbaycan xalça sənətinin XX-XXI əsrlərdə keçdiyi inkişaf yolu təqdim olunub. Burada "Azərxalça" müəssisəsinin fəaliyyəti, onun xalça sənətinin inkişafındakı xidmətləri işıqlandırılır. Ekspozisiya Azərbaycan Xalça Muzeyinin tarixindən, dövlətimizin bu qədim sənətə göstərdiyi diqqət və qayğısından bəhs edir. Burada Azərbaycan xalça sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında informasiya təqdim olunub. Bu mərtəbədə xalça elminin banisi, Xalq rəssamı, görkəmli xalçaçı rəssam Lətif Kərimovun yaradıcılıq və elmi fəaliyyəti də yer alıb. Azərbaycan Xalça Muzeyinin Şuşa filialından gətirilmiş xalçalar, xalça məmulatları və milli geyim nümunələri isə ekspozisiyanı tamamlayır. Filial 1987-ci ildə yaranmışdır. 1992-ci ildə Şuşa şəhərinin erməni qoşunları tərəfindən işğalı zamanı muzey işçiləri və yerli sakinlər öz həyatlarını risk altına qoyaraq ekspozisiyanın bir hissəsini çıxarmışdır. Hal-hazırda onlar muzeydə qayğı ilə qorunub saxlanılır.



Şagirdlər ekspozisiya zamanı həm də aşkar edirlər ki, Azərbaycan Milli Xalça Muzeyində yerləşən Şeyx Səfi Xalçası 1539-cu ildə hazırlanan xalçanın surətidir.

1539-cu ildə Səfəvi hökmdarı I Təhmasibin sifarişi ilə Şeyx Səfi məscidi üçün xüsusi bir xalça toxunmuşdur. Təbrizin peşəkar sənətkarları xalça üzərində 2-3 il işləyib onu ərsəyə gətirmişdilər. Eni 5,34 *m*, uzunluğu 10,51 *m*, sahəsi 56,12 $m^2$olan xalça dünya muzeylərində saxlanılan ən nadir xalq sənəti nümunələrindəndir. Bəzəkləri gül-çiçək rəsmlərindən ibarətdir. Xalçada zəngin rəng çalarları vəhdət təşkil edir. Xalının mərkəzində yerləşən qönçə Günəşi, onun ətrafında dairə şəklində düzülmüş xırda güllər haləni, yaşıl, qırmızı, sarı rəngli 16 kiçik dairəvi qübbə isə Günəş şüalarını əks etdirir. Həmin kompozisiyanın yuxarı və aşağı hissələrində zəngin bəzəkli, qırmızı və şəkəri rəngli qəndil təsviri vardır. Ətrafdakı saysız hesabsız əlvan naxışlar kainatdakı ulduzların rəmzidir.



Çox təəssüf ki, Azərbaycanın bu qədim xalçası hazırda Londonda saxlanılır. 1891-ci ildə İranda xaos şəraitdə məsciddən Azərbaycan xalçaçılığının mirvarisi "Şeyxi Səfi" xalçası yox oldu. Viktoriya və Albert muzeyinin dizayneri Vilyam Morris qiymətsiz xalçanın İngiltərəyə gəlməsi haqqında muzeyin rəhbərliyinə bildirmişdi və onun əldə edilməsində təkid etmişdi. Xalça 2000 funt sterlinqə qiymətləndirilmişdi və bu məbləği muzeyin ödəməyə gücü olmadığından onlar ictimaiyyətə müraciət etdilər. 1893-cü ildə qısa müddət ərzində 2000 funt sterlinq yığılmışdı, xalça alınmışdı və Viktoriya və Albert muzeyində şüşə altında qoyulmuşdu.

Sərgi zamanı şagirdlər Vətənə qaytarılan xalçalarla da tanış olurlar. XVII əsrə aid "Naxçıvan" və XVII əsrə aid Qarabağın "Xətai" xalçası Heydər Əliyev Fondunun muzeyə hədiyyə etdiyi üçüncü eksponatdır. Vətənə qaytarılan xalçalarla tanış olandan sonra şagirdlər maddi irsimizin qorunmasının vacibliyini bir daha dərk edirlər.

**Problemin elmi yeniliyi**. Şagirdlər ekspozisiyanın sonunda Azərbaycan mədəniyyətinin xüsusilə xalçaçılıq sənətinin tarixi haqqında məlumatlara malik olurlar.

**Problemin praktik əhəmiyyəti.** Onların qorunmasının vacibliyi, gələcək nəsillərə mühafizə olunmasının necə müqəddəs vəzifə olduğunu bir daha anlayırlar. Şuşa muzeyindən muzey işçilərinin necə qəhrəmanlıqlarla xalçaları xilas etdikləri ilə tanış olurlar. Ürək ağrısı ilə Şeyx Səfi xalçasını Londonda seyr etməyin necə acı olduğunu dərk edirlər.

**Problemin aktuallığı.** Belə hadisələrin təkrar olunmaması üçün hər bir vətəndaş vətənin keşiyində durmalı, adət ənənələri qorumalı, onun mədəniyyətinə sahib çıxmalıdır.

**Ədəbiyyat:**

1. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik, II cild . Bakı: Mütərcim, 2012, s. 548.
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Elm və təhsil, 2010, 464 s.
3. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı: Yeni nəşr, 2011, 707 s.
4. Məmmədov R., Əsədov K. X sinif Azərbaycan tarixi dərslik. Bakı: Şərq- Qərb, 2017, s. 204.
5. Hüseynov E., Quliyev N. "Ümumtəhsil məktəblərinin X sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Şərq- Qərb, 2018, 196 s.
6. Hətəmov R., Hüseynov A., Hüseynov E. "XI sinif Azərbaycan tarixi dərslik". Bakı: Şərq-Qərb, 2017, 212 s.
7. Hüseynov E., Bəhrəmova S. XI sinif Azərbaycan tarixi metodik vəsait. Bakı: Şərq-Qərb, 2018, 212 s.
8. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005, 458 s.
9. İnternet resursu: azcarpetmuseum.az

**E-mail:** laalequrban25@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok. prof.* **İ. Cəbrayılov**
*ped.ü.fəls.dok.* **T. İsayeva**

**Redaksiyaya daxil olub:**10.03.2021